DOI:10.30546/gdu.3.2024

***PEDAQOGİKA***

**UOT:37.**

# AZƏRBAYCAN TARİXİ DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN MİLLİ-MƏNƏVİ ŞÜURUNUN YÜKSƏLDİLMƏSİ İMKANLARI

***dosent, p.ü.f.d. Kərimova Gülarə Hüseynağa qızı***
***Bakı Dövlət Universiteti***
***Orcid kod: 0009-0004-3372-9786***

**Xülasə:** *Məqalədə şagirdlərdə milli-mənəvi şüurun formalaşdırılmasının aktuallığı açıqlanmış, bu hisslərin şagirdlərdə formalaşdırmağın əhəmiyyəti şərh edilmiş, tədqiqat üsulları, tədqiqatın nəzəri və praktik dəyəri verilmişdir. Məqalədə V-IX siniflərin Azərbaycan tarixi fənni problem baxımından araşdırılmış, şagirdlərin milli ruhda tərbiyəsi yolları açıqlanmışdır.*

**Açar sözlər:** Azərbaycan tarixi, sinif, şagird, milli-mənəvi şüur, milli-mənəvi dəyər, məktəb, tədqiqat

**Ключевые слова**: История Азербайджана, класс, ученик, национально-нравственное сознание, национально-нравственные ценности и, школа, исследование

**Keyword**: History of Azerbaijan, class, student, national-moral consciousness, national-moral values, school, study

Hər bir xalq milli-mənəvi dəyərləri ilə seçilir və tarixdə yaşayır. Azərbaycan xalqı da öz dəyərləri və milli-mənəvi şüuru ilə tanınır. Bu zəngin tarixi irsi böyüyən nəslin yaddaşına kğçürmək çox vacibdir. Yeniyetmələrin milli-mənəvi şüurunun yüksəldilməsi həm də ona görə zəruridir ki, sosial şəbəkələrə aludə olmaq, dünya ölkələrinin gənclərinə xas olan keyfiyyətlərinin özəlləşdirilməsinə istək və meylin yüksəlməsi problemin aktuallığını gündəmə çəkir. Böyüyən nəslin milli-mənəvi ruhda tərbiyə olunmaları həm də ona görə aktualdır ki, onlar soykökünə, adət-ənənələrinə, azərbaycançılıq hisslərinə yiyələnməyə borcludurlar, həm də bu baxımdan milli-mənəvi ruha sahib olmalıdırlar. Azərbaycan Respublikasının prrezidenti İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illiyində sözünü gənclərə ünvanlayaraq demişdir. Bizim gənclər milli-mənəvi ruhda, milli-mənəvi dəyərlərə məhəbbət ruhunda tərbiyə olunmalıdır. İlham Əliyevin bu fikri də tədqiqatı aktuallaşdıran məsələlərdəndir. Tədqiqat üsulları müraciət edərək problem dərindən öyrənilmişdir. Aparılan müşahidə, sorğu və eksperiment vasitəsilə tədqiqatın daxilinə nüfuz edilə bilinmişdir.

Tədqiqatın yeniliyi ondan ibarətdir ki, şagirdlərin milli-mənəvi ruhda tərbiyə edilməsinin imkan və yolları araşrırılmış və ümumiləşdirilmişdir.

Tədqiqat işi praktiki əhəmiyyətə malikdir. Ondan istər orta, istərsə də ali məktəb müəllimləri mənbə kimi istifadə edə biləcəklər.

Yeniyetmələrin milli-mənəvi ruhda tərbiyə olunmasında orta məktəblərin V-IX siniflərində tədris olunan Azərbaycan tarixi fənninin rolu böyükdür.

Milli müstəqilliyimizin, milli-mənəvi dəyərlərimiin, ruhumuzun dönməzliyini şagirdlərdə tərbiyə etmək üçün V-IX siniflərin tarix fənni geniş imkanlar açmışdır. Tariximiz, yeniyetmələri milli-mənəvi ruhda tərbiyə etmək üçün zəngin materiallara malikdir.

V sinfin "Vətən tarixi" fənninin tədrisində Vətənə, elə bağlılıq böyük yer qazanır. Dərslikdə verilmiş "Hökmdar qadın – Tomris" mövzusu bu baxımdan diqqəti cəlb edir. Mətndə göstərilir ki, Massagetlərin hökmdarı Tomrisi fars hökmdarı II Kir onun ərazilərini ələ keçirmək üçün ona evlənmək təklif edir. Bundan qəzəblənən II Kir massagetlərlə müharibəyə başlayır. II Kir döyüşdə məğlub olacağını görüb hiyləyə əl atır. Bu döyüşlərdə

DOI:10.30546/gdu.3.2024

massagetlərə rəhbərliyi Tomrisin oğlu əsir olmağı özünə sığışdırmayıb özünü öldürür. Bu xəbəri eşidən Tomris düşmən üzərinə hücum edib qələbə qazanır. Tomris Vətəni işğal təhlükəsindən xilas edir. Təsadüfi deyildir ki, dərslikdə verilən məğlub edilməzliyinə qürrələnib Azərbaycanı qan içində boğmaq üçün yurdumuza soxulmuş İran hökmdarı Kirin qoşunlarını darmadağın etmiş Tomris ananın yadigarıdır – Vətən kəlmələri məktəblilərin vətənpərvərlik tərbiyəsinə çağırış kimi qəbul edilir.

Yeniyetmələrdə milli-mənəvi şüurun formalaşdırılması mərkəzində torpağa, elə, obaya, diyara, Vətənə bağlılıq dayanır. Aparılan araşdırmalar göstərir ki, şagirdlərin mill-mənəvi hisslərinin formalaşdırılmasına xidmət edən mövzular çoxdur və bu sıraya “Azərbaycan qədim ölkədir”, “Manna dövlətinin yaranması və inkişafı”, “Azərbaycan midiya və əhəmənilər imperiyası dövründə”, “Atropatena dövləti”, “Albaniya dövlətinin yaranması”, “Albanların yadellilərə qarşı mübarizəsi”, “Almaniya sasanilərin tərkibində (VI sinif); “Ərəb işğalına qarşı mübarizə. Cavanşir”, “Xürrəmilər hərəkatı. Babək”, “İslamın milli və mədəni inkişafa təsiri”, “Müstəqil dövlətçiliyin bərpası”, “Azərbaycan vahid dövlət tərkibində”, “Xudafərin körpüsünün birləşdirdiyi iki Azərbaycan dövləti”, “Oğuz-Səlcuq axınları”, “Monqol yarışlarına qarşı mübarizə”, “Şirvanşahlar dövləti və Şəki hakimiyyəti”, “Qara Yusif və varisləri”, “Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti”, “Səfəvi-Osmanlı müharibələrinin başlanması” (VII sinif); “Azərbaycan ərazilərinin Osmanlılar tərəfindən işğalı”, “I Şah Abbasın islahatları”, Cəlalilər hərəkatı. “Şah I Abbasın hərbi uğurları”, “Azərbaycan torpaqlarının iki imperiya arasında bölüşdürülməsi”, “Azərbaycan torpaqlarının azad edilməsi”, “Azərbaycanda ilk müstəqil xanlıqlar”, “Azərbaycanın cənub xanlıqları”, “Şimal-şərqi Azərbaycan dövləti – Quba xanlığı”, “Qarabağ-bəylərbəyikdən xanlığa”, “Qərbi Azərbaycan xanlıqları”, “İkihakimiyyətli xanlıqlar”, “Bakı, Lənkəran və Dərbənd xanlıqları”, “Camaat, sultanlıqlar və məlikliklər”, “Ağa Məhəmməd xan Qacarın birləşdirmə siyasəti”, “Rusiyanın Azərbaycan torpaqlarının işğalına başlaması”, “Çar Balakənin və Gəncə xanlığının Rusiya trəfindən işğalı”, “Qarabağ, Şəki və Şamaxı xanlıqlarının Rusiya tərəfindən işğalı”, “Bakı, Dərənd və Quba xanlıqlarının işğalı”, “Gülüstan müqaviləsi”, “Naxçıvan və İrəvan xanlıqlarının işğalı”, “Türkmənçay müqaviləsi”, “Azərbaycanı parçalayan və müstəmləkəyə çevirən ədalətsiz müharibələr (VIII sinif); “Xalq hərəkatı”, “Burjua islahatları”, “Bakının dünyanın neft mərkəzinə çevrilməsi”, “Millətin formalaşması”, “Milli mətbuatın, teatrın yaranması. Ədəbiyyat və incəsənət”, “Azadlıq hərəkatının yeni mərhələsi”, “Azərbaycanlı əhaliyə qarşı ermənilərin törətdiyi kütləvi qırğınlar. Milli-demokratik hərəkat”, “Milli partiya və təşkilatların yaranması”, “Azərbaycan Birinci dünya müharibəsi illərində”, “Şimali Azərbaycanda türk-müsəlman əhaliyə qarşı soyqırımlar”, “Azərbaycan Xalq Cümhuriyyətinin yaranması”, “Dövlət quruculuğu sahəsində tədbirlər”, “Erməni işğalçılarına qarşı mübarizə”, “Sovet rejiminə qarşı xalq hərəkatı”, “Formal müstəqilliyin ləğvi”, “Azərbaycanın ərazi bütövlüyünə yeni qəsdlər”, “Zorakı kollektivləşmə”, “Azərbaycan SSR İkinci dünya müharibəsi illərində”, “Azərbaycan SSR müharibədən sonrakı on illərdə”, “Milli oyanış cəhdləri”, “Dövlət müstəqilliyinin bərpası”, “Qurtuluş hərəkatı”, “Qarabağ müharibəsi”, “Dövlət müstəqilliyinin möhkəmləndirilməsi tədbirləri”, “Azərbaycan Respublikasının inkişafında yeni mərhələ” və s. (IX sinif) daxildir.

Yeniyetmələrin milli-mənəvi dəyərlərə məhəbbət ruhunda tərbiyə edilməsində, onlarda milli-mənəvi ruhun yüksəldilməsində V sinfin “Azərbaycan tarixi” dərsliyində verilmiş “Kitabi Dədə Qorqud – yurdumuzun tarix səlnaməsi” mövzusu böyük əhəmiyyət kəsb edir. Mövzunun tərdisində bir tərəfdən xalqın milli-mənəvi dəyərləri, digər tərəfdən mərdlik, cəsurluq, igidlik, sözündən dönməməzlik və s. şagirdlərə çatdırmaq olur.

Qeyd etmək lazımdır ki, dərslikdə öz əksini tapmış müdrikliklə bağlı mətnlərin də milli-mənəvi şüurun şagirdlərdə formalaşdırılmasında rolu böyükdür.

DOI:10.30546/gdu.3.2024

Azərbaycan xalqının uzun illərin çətinliklərindən sonra öz arzusuna çatması onun apardığı məqsədyönlü işin nəticəsidir. Bu sırada torpaqlarımızın düşmən caynağından azad edilməsi, milli qürurun vüsət alması, milli mentalitetin, milli-mənəvi dəyərlərin əxlaqımızda aparıcı qüvvəyə çevrilməsi, daim inkişaf etməyə hazırlanan şəxsiyyət tərbiyəsi önəmli yer tutur. Milli-mənəvi dəyərlərimizin tarixi böyükdür. Onların əksəriyyəti qədim dövrlərdən və orta əsrlərdən bəri xalqın mentalitetində kök salmışdır. Azərbaycan xalqının mənəvi dəyərlərinin dünyəviliyi, dinamikliyi, demokratikliyi, humanistliyi, xəlqiliyi tükənməzdir. Mənəvi dəyərlər tərbiyə prosesində ötürülür, formalaşır və inkişaf edir. Bu prosesdə müdriklik də özünü təzahür etdirir. Azərbaycan xalqı müdrik xalqdır. Bu müdriklik ona elindən- obasından gəlmişdir. Ona görə də tarixə Azərbaycan xalqı müdriklik simvolu kimi daxil olmuşdur. Tomris ana, Cavanşir, Babək, I Fəzl, Arp Aslan, Məlik şah, Atabəy Şəmsəddin Eldəgiz, Cahan pəhləvan, Şirvanşah Axsitan, III Maniçohr, Qara Yusif, Uzun Həsən, onun anası Sara xatun, I Şah İsmayıl, Şirvanşah I İbrahim, I Xəlilullah, İbrahim Xəlil xan, Qubalı Fətəli xan, Məmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, N.Nərimanov, M.P.Vaqif, C.Məmmədquluzadə, Heydər Əliyev və minlərlə şəxsiyyətlər tariximizin yaddaşına müdriklik kimi daxil olmuşdur. Aparılan araşdırma və təhlillər göstərir ki, yeniyetmələri müdriklik dəyərləri əsasında tərbiyə etmək üçün V-IX siniflərin Azərbaycan tarixi və Ədəbiyyatı dərsliklərində kifayət qədər mətnlər vardır. Azərbaycan xalqının milli-mentalitetindən gələn bu dəyəri şagirdlərə aşılamaq üçün Azərbaycan tarixi dərsliyində verilmiş “Cavanşir”, “Atropatena dövlətləri”, “Babək”, “Monqol yürüşlərinə qarşı mübarizə”, “Qərbi Azərbaycan xanlıqları”, “Qurtuluş hərəkatı” müdriklik milli-mənəvi dəyərindən soraq verən mətnlərdəndir. Dərsliklərdə verilənlərə nəzər salaq: qeyd olunan mətnlərdən Atropatin Fateh Makedoniyalı İskəndərin hörmətini və etimadını qazanmaq üçün Bariaksin üsyanını dayandırmasım, hətta sevimli qızını İskəndərin seçilən sərkərdəsi Perdikkiyə ərə verməsini, xəzərlilərin Albaniyaya hücumlarına sona yetirmək və onları dağıntılardan xilas etmək üçün Cavanşirin Xəzər xaqanının qızı ilə ailə qurmasını, Albaniyanın müstəqilliyini qoruyub saxlamaq üçün VII əsrin 60-cı illərinin sonlarında xəlifə ilə görüşmək üçün Şam şəhərinə getməsini, Azərbaycana monqolların ilk yürüşü zamanı Təbriz şəhərini dağıdılıb yandırılmaqdan xilas etmək üçün şəhərin hakimi Şəmsəddin Tuğrayının monqollara pal-paltar, mal-qara, pul və s. verməsini nümunə kimi göstərmək müdriklik dəyərlərinin şagirdlərə aşılanmasını asanlaşdıra bilir.

Fikrimizcə V-IX sinif müəllimləri Azərbaycan tarixi dərsliklərinin müvafiq bölmələrində verilmiş mədəniyyətimizlə bağlı mövzuları tədris edərkən xalqımızın müdriklik dəyərlərini daim onlara xatırlatmalıdır. Şagirdləri düşündürə biləcək:

- Müdriklik xalqa nəyi bəxş etmişdir?

- Müdriklik xalqın böyüklüyünün həm də təzahür formasıdır?, - deyəndə nəyi xatırlaya bilərsiniz?

- Azərbaycanın müdrik şəxsiyyətlərini necə xarakterizə etmək olar? sualını verməklə müdriklik haqda anlayışlarını genişləndirmək, həm də dərinləşdirmək olar.

Dövlətçilik və Azərbaycançılıq bir-birini tamamlayır. Elmə yeni daxil olan Azərbaycançılıq Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Şagirdlərin milli-mənəvi şüurunun formalaşdırlmasında dövlətçilik mənəvi dəyərinin də rolu böyükdür.

VIII sinfin Azərbaycan tarixi dərsliyində verilmiş “Xürrəmilər hərəkatı. Babək” mətni də problem baxımından çox dəyərlidir. V sinifdə “Qırx il kölı yaşamaqdansa...” mövzusunun tərdisində milli-mənəvi ruhun şagirdlərdə formalaşdırılmasına xidmət edən igidlik, mərdlik, Vətənə sevgi, namus, cəsurluq və s. anlayışların mənası Babək timsalında aydınlaşdırılır.

Dərsliyin “Azərbaycan Respublikasının inkişafında yeni mərhələ” mətni müəllimlərə

DOI:10.30546/gdu.3.2024

imkan verir ki, Ulu öndərin layiqli davamçısı Azərbaycan Respublikasının uğurlu siyasətindən 44 gündə torpaqlarımızı işğalçı ermənilərdən təmizləməsi mərhələsindən, şəhid övladlarımızın qəhrəmanlıq tarixindən bəhs etsin.

Belə qənaətə gəlmək olur ki, Azərbaycan tarixi dərslikləri şagirdləri milli-mənəvi ruhda tərbiyə etməyə xidmət edən kifayət qədər mətnləri özündə birləşdirmişdir.

Dərsliklərdə verilmiş təkcə qəhrəmanlıq səhnələrini əks etdirən mətnlər deyil, ölkəmizin iqtisadiyyatından bəhs edən mətnlər də problem baxımından böyük əhəmiyyət kəsb edir.

- Mövzuların tədrisi zamanı istifadə edilən üsul və vasitələr də problemin həlli baxımından əhəmiyyətlidir.
- Tədris olunan mövzuların hər birində tərbiyəedici imkanlara geniş yer verilməlidir.
- Mövzuların tədrisində öyrədilənlərə yaradıcı yanaşmaq şagirdləri də bu ruhda kökləmək çox əhəmiyyətlidir və s.

***Ədəbiyyat***

1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Universitetlərin magistratura səviyyəsi üçün dərslik / A.N.Abbasov. – Bakı: Mütərcim, – 2016. – 324 s.
2. Allahverdiyeva, S. Bədii ədəbiyyatın tələbə gənclərin ləyaqət tərbiyəsinə təsiri / S.Allahverdiyeva. – Bakı: BDU, – 2004, – 107 s.
3. Həsənov, A.M. Azərbaycan uşaq ədəbiyyatında əks olunmuş mənəvi dəyərlərdən kiçik yaşlı məktəblilərin əxlaq tərbiyəsində istifadə üzrə işin sistemi: / pedaqogika elmləri doktoru dis. / – Bakı, 1999. – 350 s.
4. Kərimova, G.H. Vətənpərvərlik – mənəvi mədəniyyətimizin ən mühüm tərkib hissəsi kimi // – Bakı: Zirvədəki Azərbaycanlılar, – 2022, – s.12-16.
5. Kərimova, G.H. Vətənpərvərlik ən yüksək mənəviyyatdır // Online International Congress of Social Sciences (USBIK ONLINE)". Türkiyə, Kayseri. – 2021, – s.38.

## THE IMPROVEMENT OF NATIONALCONOSCIENU OF SCHOOLCHILDREN ON THE LESSONS OF HISTORIY OF AZERBAIJAN

***Kerimova Gulara Guseinaga***

***Summary***

In the article, the relevance of the formation of national-spiritual consciousness among students is explained, the importance of the formation of these feelings among students is explained, the methods of research are given, and the theoretical and practical value of research is explained. In the article, the subject "History of Azerbaijan" of grades V-IX was considered from the point of view of the problem, the ways of educating students in the national spirit were explained.

## ПОВЫШЕНИЕ НАЦИОНАЛЬНОГО САМАСОЗНАНИЯ У ШКОЛЬНИКОВ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Керимова Гюлара Гусейнага кызы***

***Резюме***

В статье объяснена актуальность формирования национально-духовного сознания у студентов, объяснена важность формирования у студентов этих чувств, даны методы исследования, теоретическая и практическая ценность исследования. В статье предмет «История Азербайджана» V-IX классов был рассмотрен с точки зрения проблемности, разъяснены пути воспитания учащихся в национальном духе.

***Rəyçi:dosent Nəzakət İmamverdiyeva***
***Pedaqogika kafedrasının 25 sentyabr 2024-cü il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olma tarixi 26 sentyabr 2024-cü il***